Mən Yardımlı elinin "Bəylər kəndi" kimi tanınan Gilar kəndində 26 mart 1937-ci ildə Sultanlı ailəsində doğulmuşam. Avtobioqrafiyam təkcə uğurlarımdan ibarət deyildir. Bu, həm də həyat yolumda başıma gələnlərin, rastlaşdıqlarımın kiçicik bir hissəsini əhatə edir. Onlardan vaz keçib yalnız uğurlarımdan danışmaqdan da vaz keçirəm.

*(Əvvəli ötən saylarımızda)*




# Avtobioqrafik xırdalıqlar



Bəhmən SULTANLI

> Haqqımda bu səpgili məktublar sonrakı illərdə də gəlməkdə davam etdi. Dəfələrlə mərhum müəllimim dosent Kəriş Köçərli barəmdə olan imzasız məktubda Atamla, nəsil-nəcabətimlə maraqlanmışdı. Kəriş müəllim mənə həmişə arxa durudu. Onun məni dəfələrlə müdafiə etdiyini heç vaxt unutmaram. Onun özünün də bəy nəslindən olduğu, Atasının vaxtıyla siyasi repressiyaya məruz qaldığı son zamanlar məlum oldu. Dostumun Atasının sovet təhlükəsizlik orqanlarına xidmət etmiş molla olduğunu da, onun adamların üzünə durub həbs etdirən mollalardan, "başbilən"lərdən olduğu barədə eşitmişdim...

Günlərini yeyib-içməkdə keçirən, özləri də anlamadan mənfur tapşırığa əməl edən bu tələbəgənclər heç nəyi nəzərə almırdılar, heç nədən çəkinmirdilər. Məni təxribata çəkmək, hansısa şərə salmaq, dava-dalaşa sövq etmək, şantaja çəkmək ən başlıca işləri idi. Onlardan uzaq gəzmək asan olmurdu. Artıq-əskik söz yaranmaması üçün ölçülü-biçili davranırdım. Bununla, heç kimə əyilmirdim, özümü yazıq, məzlum deyil, iradəli, cürətli, cəsarətli aparırdım. Səksəninci il olayları dönəmində tələbəlik illərində mənə qarşı törədilən həmin olayların başçısı ilə gözlənilmədən rastlaşdım. O, şəstlə üstümə şığıyaraq məni qucaqladı, bağrına basıb dedi:

"Sənə sözüm yoxdur. O boyda təzyiqlərə, təqiblərə sinə gərə-gərə, heç kimə təslim olmaya-olmaya oxuyub universiteti bitirdin, hətta, eşitdiyimə görə dissertasiya da müdafiə etmisən. Sən bilirdin sənə qarşı hərəkətlər səni universitetdən könüllü uzaqlaşdırmaq üçün idi? Bilirdin, sən oxuya bilməyib ya özün universiteti tərk etməli, ya da oxuya bilməyib qovulmalı idin? Bundan mənim xəbərim vardı, ancaq sənə deyə bilmirdim, desəydim, özün bilirsən aqibətim necə olardı? Səndən imzasız məktublar gəldiyindən xəbərin vardı, səni xalq düşməni kimi qələmə verdiklərini bilirdin?"

Bunlardan da kimlərə barəmdə tapşırıq verildiyindən də təxmini xəbərim olduğunu bildirdim. O: "Səni tribunada görəndə fəxr edirəm, öz uşaqlarıma deyirəm, onunla universitetdə bir oxumuşuq". Birinci kursda oxuyan zaman "dostum"un dediyi imzasız məktuba görə o zaman məni vaxtaşırı xüsusi şöbəyə çağırırdılar. Şöbənin müdiri Qafarov özü məni sorğu-suala tuturdu, atamın güllələnmiş olduğu barədə soruşurdu. "Xüsusi şöbə"də sorğuda Atamın üzünü də görmədiyimi, mən uşaq olarkən onun müharibəyə aparıldığını, sonra geri qayıtmadığını, onun haqqında bundan başqa heç nə bilmədiyimi deyirdim. Öz avtobioqrafiyamda da atam barəsində bu cür yazmışdım.

Haqqımda bu səpgili məktublar sonrakı illərdə də gəlməkdə davam etdi. Dəfələrlə mərhum müəllimim dosent Kəriş Köçərli barəmdə olan imzasız məktubda Atamla, nəsil-nəcabətimlə maraqlanmışdı. Kəriş müəllim mənə həmişə arxa durudu. Onun məni dəfələrlə müdafiə etdiyini heç vaxt unutmaram. Onun özünün də bəy nəslindən olduğu, Atasının vaxtıyla siyasi repressiyaya məruz qaldığı son zamanlar məlum oldu. Dostumun Atasının sovet təhlükəsizlik orqanlarına xidmət etmiş molla olduğunu da, onun adamların üzünə durub həbs etdirən mollalardan, "başbilən"lərdən olduğu barədə eşitmişdim. Bunu o zamanlar danışırdılar. Bütün bunlar barədə heç kimə danışmırdım, evdə də heç nə demirdim. Dostlarıma, tələbə yoldaşlarıma deməyimin bir cür rahatsızlığı var idi, evdə deməyimin başqa cür. Evdə desəydim, bunu müzakirə edəcəkdilər, müəyyən adamlardan görəcəkdilər, kimə isə deyəcəkdilər, söz sahibinə çatacaqdı, o da imzasız məktubuna önəm verildiyini zənn edib "fəaliyyətini" davam etdirəcəkdi, başağrım çoxalacaqdı.

Filosof olmaq istəyim.

Birinci kursda oxuyanda Bədəlan orta məktəbində kimya müəllimim olmuş Alxas müəllim öz qohumu, Moskvada fəlsəfə üzrə aspirantura bitirib yenicə Bakıya qayıtmış Mirzağa Rüstəmovla məni tanış etmişdi. Mirzağa çox səmimi, mədəni, mənəviyyatlı, ağıllı, savadlı insan idi. Onunla müntəzəm görüşürdüm. Məni öz iş yerinə (Elmlər Akademiyasının o zamankı Fəlsəfə Bölməsi) aparıb iş yoldaşlarından Firudin Köçərli, Ziyəddin Göyüşov, Məqsəd Səttarov, Əlislam Əliyev, Həmid İmanov, Həsən Şirəliyev, İzzət Rüstəmov və başqaları ilə tanış etmişdi. Bir müddətdən sonra ara-sıra yeri düşəndə mən də onların söhbətlərinə qarışa bilirdim. Sonralar özləri məni söhbətlərinə qatırdılar. Ara-sıra mənim filosof ola biləcəyimi dilə gətirib məni ruhlandırırdılar. Ona görə də özüm doğrudan-doğruya filosof olmaq həvəsinə düşdüm. Başladım fəlsəfəyə aid məqalələr, kitablar oxumağa.

Bir gün universitetimizin fəlsəfə kafedrasının müdiri professor Mehbalı Qasımovun yanına gedib istəyimi ona bildirdim. Fəlsəfəyə aid nə oxuduğumu soruşdu. Oxuduqlarımdan bir qisminin adını çəkdim. Mənə bir qisim fəlsəfi məzmunlu bədii əsərləri oxumağı tövsiyə etdi. Bunların sırasında Nizaminin, Füzulinin, Volterin, Ömər Xəyyamın, Rabindranat Taqorun adları var idi. Bunlardan bir qisimini oxumuşdum. Fizika fakultəsində oxuduğum üçün rus dilində "Problemı priçinnosti v sovremennoy fizike" adlı kitabı tapıb oxumağı və onun birinci fəsilini öyrənib ona danışmağı tapşırdı. Kitabı dükandan tapıb aldım, ancaq həm rusca idi həm də orada fizikaya aid yazılanlar yuxarı kurslarda keçildiyindən, o haqda təsəvvürüm yox idi. Ona görə də professorun mənə dediyi zamanda yanına getdim və bunları ona dedim.

Professor universiteti bitirəndən sonra fəlsəfə üzrə fəlsəfə kafedrasının aspiranturasına girməyi məsləhət bildi. Sonra da maraqlar dəyişdiyinə görə fəlsəfənin ardınca getmədim. 1961-ci ilin oktyabr ayında, hələ tələbə ikən Azərbaycan SSR Elmlər Akademiyası Kimya institutunda görkəmli alimimiz Xudu Məmmədov məni rəhbərlik etdiyi laboratoriyada işə götürdü. Bu, məni çox vüqarlandırırdı. Çünki, bir yandan, Elmlər Akademiyasında, həm də Heydər Əfəndi kimi böyük alimin, böyük ziyalının rəhbərlik etdiyi institutda, Xudu Məmmədov kimi qüdrətli alimin laboratoriyasında işləyəcəkdim. Hələ işə yenicə başlamışdım, Fəridə adlı bir qız mənimlə maraqlandığını gördüm. Fəridə Azərbaycan sənaye institutunu bitirmişdi. Mənim özümlə, sevdiyim qız, nişanlanmış olub-olmadığımla maraqlanırdı. Mən isə nişanlanmamışdım, sevdiyim qız da yox idi və heç bu barədə düşünmürdüm. Fəridə günlərin bir günündə mənə ürəyini açdı, dedi, Bəhmən, məni olasan". Görürdüm, Fəridə tərbiyəsiz deyil, bəlkə də Anası onu təhrik eləyir. Nə isə...

Mən Xudu müəllimin məsləhəti ilə Azərbaycan Elmlər Akademiyası Neft-Kimya prosesləri institutunun fiziki tədqiqat üsulları laboratoriyasında kiçik elmi işçi vəzifəsinə keçirilmişdim. 1963-cü ildə həmin institut bir neçə instituta bölündü, mən Aşqarlar Kimyası institutuna keçirildim. 1965-ci ildə həmin institutun aspiranturasına qəbul olundum. 1965-ci ilin dekabr ayında AzEA Aşqarlar Kimyası institutunun direktoru Akademik Əli Quliyevlə sevimli alimimiz Xudu Məmmədovun məsləhəti ilə aspirantura müddətində Dövlət Azot Sənayesi və Üzvi Sintez (QİAP i orqsintez) institutuna professor Aleksandr Valentinoviç İoqansenin rəhbərliyi altında işləmək üçün Moskva şəhərinə getməyim qərara alındı. Moskvada olduğum çağlarda o vaxtkı elm mərkəzlərinin yataqxanalarında yaşadım. Bu yataqxanaların xəritəsi belə olub: SSRİ EA Qorki küçəsi 49-da, Dmitri Ulyanov küçəsi 5-də, Karpov adına Fiziki-kimya institutunun Babuşkino qəsəbəsindəki aspirant yataqxanasında. Hər yataqxananın özünün özəl cəhətləri var idi. EA sisteminin aspirant yataqxanalarında bütün mövcud elm sahələri üzrə olan aspirantlar, Karpov adına Fiziki-Kimya institutunun yataqxanasında isə kimyaya, tətbiqi kimyaya, fizikanın kimya ilə təmaslı sahələrinə aid ixtisaslar üzrə aspirantlar yaşayırdılar. Bir neçə elmi məqalələrim dərc olunmuşdu, bir neçə məqaləm də dərc olunmaq üçün hazırlanmışdı. Nurlu, dünya görmüş, əslən Cəlilabadın Fərzili kəndindən olan Əşrəf dayının İnşaatçılar prospekti 32-də yerləşən 12 otaqlı birmərtəbəli evində otaq kirələdim. Əşrəf dayı məndən evkirəsi götürmədi. Ev köhnə idi, həm də küçədən təqribən 1-2 metr dərinlikdə yerləşirdi. Yaşadığım mənzilin bircə pəncərəsi var idi, o da divarın başında qoyulmuşdu.

Müdafiə üçün institut Elmi Şurasının vəd etdiyi tarix yaxınlaşırdı, noyabrın sonlarında Moskvaya qayıtmalı idim. Bu məqsədlə hazırlaşırdım, hazırladığım pulları, dissertasiyamı, məqalələrimi, paltarlarımı yerbəyer eləyirdim. Səhv etmirəmsə, noyabrın 16-sı idi, Bir azdan qəfildən Bakıda görünməmiş dərəcə güclü yağış yağdı, hər tərəfi sel basdı. Sel mənim yaşadığım otağın pəncərəsini ani olaraq sındırıb otağa doldu, axıb aynabəndi doldurdu, oradan da axıb özülüstü məkana töküldüsevərsənmi, mənimimlə nişanlanmaq istəyərsənmi? Dedim yox, mən nişanlanmaq istəmirəm, aspiranturaya girmək, alim olmaq istəyirəm. Fəridə Azərbaycan Sənaye institutunu bitirmişdi. O da aspiranturaya girmək istəyirdi. Fəridənin işləri yaxşı gedirdi, onun Atası Akademik idi. O, mənə nişanlanmaq üçün təkid eləyirdi, mən isə "yox" deyə durmuşdum. "aspiranturaya girmək istəyirəm" sözüm Anasının çox xoşuna gəlmişdi. Ancaq mən sözümdə qəti idimə. Fəridə mənə çox yaxınlaşırdı, deyirdi sənə nişanlanandan sonra təslim olaram. Deyirdim, biz müharibə aparmırıq ki, mənə təslim olasan, "yox, istəmirəm mənə təslim"...

Bu vaxt Əşrəf dayı canını qoymağa yer tapa bilmirdi, Allahdan imdad diləyirdi. Yağış ara vermədən daha da şiddətlənirdi. Artıq canımı qurtarmağa macal qalmırdı. Mənimlə qonşuluqda Gürcüstanın Marneuli rayonundan gəlmiş Pullu, Bəsti, Lətifə... adlı tələbə qızlar yaşayırdılar. Ev yiyəsinin iki məktəb yaşlı uşağı var idi. Bizim hamımızı selin aparmaq təhlükəsi yaranmışdı. Otaqda iki elmi məqaləm də orada olmaqla, nəyim var idisə sel hamısını "yuyub" apardı. Ayağımı şüşə kəsdi, canımı qurtarmaq üçün imkanım tükəndi. Qonşuluqdan, "Olimpin binası" adlanan binadan bizi xilas etməyə gələnlər var idi. Onlardan biri məni çiyninə alıb seldən çıxaartdı, öz pencəyini əynindən çıxardıb mənə verdi. Adını, adresini bilmədiyim üçün sonralar ona öz təşəkkürümü də çatdıra bilmədim. Həmin xeyircil adam o biri adamların da həyatını xilas etdi. Onun öz canını təhlükədə qoyub bizi xilas etməsi əsl qəhrəmanlıq idi, buna indi də başqa cür ad qoya bilmirəm. Ayağımdan qan axırdı, nəfəsim təngiyirdi. Kim isə məni taksidə o zamankı Semaşko adına xəstəxanaya (indi Murtuza Nağıyev adına təcili-tibbi yardım xəstəxanası) çatdırdı. Həkimlər ayağımdan şüşə qırıntılarını çıxartdılar, lazımi tədbirləri gördülər. Bir neçə gündən sonra ev yiyəsinin bacısı qızı onun on illərlə toplayıb gizlətdiyi qızıllarını, brilyantlarını... sel "taparaq" yuyub apardığını, kişinin bunlara dözmədiyini mənə bildirdi.

*(Ardı var)*